

**VAQİF YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# ÜRƏK DEYİR Kİ...

**Zəkiyyə Elruh - doxsanıncı illərdə ədəbiyyata gələn, elə ilk şeirlər kitabı ilə ("Vətəndəne ayrılan blüncə ağlar"-1996) oxuculara "mən də varam" deyə bilən bu şairə artıq altı kitabın müəllifidir. İxtisasca həkim olsa da, şeirə, ədəbiyyata meyli heç vaxt sönməyib. Dərk edib ki, uşaq həkimi olmaq onun sənətidir, burada aldığın bilik, sonra təcrübə və əllər kara gəlir və üstəlik, sənin öz sənətinə sevgin başlıca rol oynayır,amma şeir yazmaq , könülləri ehtizaza gətirmək ürəklə bağlıdır.**

**Ürək dibçəyimdə min gül toxumu,**
**Hər yağış yağanda söz-söz cücərər.**

Bu ürək deyir ki:

**Tonqalın hisində vətən ətri var,**
**Havanın sisində vətən ətri var.**
**Yanan ağacların son hönkürtüsü-**
**Gurultu səsində vətən ətri var.**

**Bu saçı leylada vətən ətri var,**
**Aranda, yaylada Vətən ətri var.**
**Körpə rayihəli anna laylası**
**Ayədir, laylada Vətən ətri var.**

**Bu yerdə, bu göydə vətən ətri var,**
**Behiştmi, bu iydə vətən ətri var?**
**Elə bil sevgiylə qoşa yaranıb,**
**Sevilən hər şeydə Vətən ətri var.**

**Bu odda, bu suda vətən ətri var,**
**Dənizdə, quruda vətən ətri var.**
**Allahım, yuxudan ayıltma məni,**
**Bu şirin yuxuda Vətən ətri var.**

Zəkiyyə Elruh yeddi ildən çox Vətəndən uzaqlarda-Almaniyada yaşayıb və Vətən sevgisini bütün ruhu, ürəyinin həsrət döyüntüləri ilə hiss edib. Harada yaşamasından asılı olmayaraq Vətən onun üçün həm doğulduğu məkan, həm də ruhunun, şairliyinin, sözünün Vətəni olub. "Açılsın yurd yolu, Qarabağ yolu" deyib, "Vətən torpağına qarışaydım kaş" söyləyib.

**Mən səni sevməkdəm bezmədim, Vətən,**
**Qara torpağını, daşını sevdim.**
**Ala buludlarıfn yağış tökəndə,**
**Kövrəlib gözünüyn yaşını sevdim.**

**Dilimdə cücərən şirin dilini,**
**Canıma can verən gözəl elini,**
**Suda balığını, yerdə gülünü,**
**Göydə qatarlanan quşunu sevdim.**

Bu Vətən sevgisi Zəkiyyə Elruhun təbiət gözəlliklərindən söz açan şeirlərində də nəzərə çarpır. "Bulud", "Payız", "Yasəmən", "Yarpaq oğulları, çiçək qızları", "Xəzər" və s. şeirləri təkcə Vətən təbiətinin peyzajları deyil, həim də Vətənin təbiətdə görsənən poetik cizgiləridir.

Zəkiyyə Elruh qoşmaya, gəraylıya, ümumən heca şeirinə daha çox meyl edir. "Varsağı qoşmalar", "Varsağı gəraylılar" yazır. Varsağı türk xalqlarının şifahi poeziyasında geniş yayılmış və şəkil etibarilə gəraylıya yaxın olan şeir formasıdır. Deyilənə görə, öz adənə "Varsaq" adlı qədim Azərbaycan qəbiləsinin adından götürüb, bəlkə də "Varsaq" adlı aşıq, el sənətkarı olub. Varsağıda musiqilik xətti daha güclüdür, qafiyə sistemi etibarilə də qoşma və gəraylılardan fərqlənir Belə ki, varsağının birinci bəndinin ikinci və dördüncü, sonrakı bəndlərinin isə sonuncu misraları olduğu kimi təkrarlanır. Təkrar olunan misra sadəcə nəqarat xarakteri daşımır, hər dəfə mətnin ümumi məzmunu və ahəngi ilə başlanır. (Bu haqda "Özümüz və sözümüz"-Bakı, Azərnəşr, 1993 ədəbiyyatşünaslıq terminləri lüğətində məlumat verilir). Gəlin, Zəkiyyə Elruhun bir varsağı gəraylısına müraciət edək:

**Yamyaşıl bənizinlə,**
**Boğazın, dənizinlə,**
**Gözəl Yusif üzünlə**
**İstanbul, sevdim səni.**

**Məscidin, minarənlə,**
**Min bir dərdə çarənlə,**
**Sayrışan səyyarənlə,**
**İstanbul, sevdim səni!**

**İslandım, buldum axı,**
**Kövrəldim, doldum axı.**
**Aşiqin oldum axı,**
**İstanbul, sevdim səni.**

Zəkiyyə Elruhun şeirlərində XXI əsrin-bu mürəkkəb, təzadlı zamanın ahangini, ritmini duyuruq. Öz dərdindən, vətənin dərd və ağrılarından, Vətən sevgisindən, Tanrıya sadiqliyindən, qəribçilik duyğularından, qadın dünyasından,, mənsuğ olduğu millətin etik, estetik aləmindən söz açanda da hiss olunur ki, bu şeirlərin zamanı İNDİdir. Keçmişdən danıfşanda da, bu dövrün nəbzini qatır şeirləirinə. Bu qloballaşma dövrü bəzən insanı çox mürəkkəb labirinlərə aparıb çıxarır, yeni dönəmdə insan bəzən macal tapmır özü olmağa: "Ömrümü, günümü yellər apardı...Vaxt tapa bilmədim .züm olmağa". Amma bunlar ötəri olur, şair yenə vaxt tapır güllərə, çiçəklərə şeir qoşur, sevgi dilində danışır, şəhid anasını görüb kövrəlir, ağlayan çinara heyfislənir və s. Əlbəttə, bütün bunlar-sevinc də, qəm də, darıxmaq da, nəyəsə inanıb-inanmamaq da təbii ki, bir şair ömrüyünün həyəcanlarıdır, hissiyyat aləminin işartılarıdır. Şeirlərində həssaslıq kifayət qədər nəzəri gəlb edir, xüsusilə, anasına və ümumən analavra həsr etdiyi nümunələrdə.

**Sənin avazın ilə**
**Açdı güllərin çoxu.**
**Qurban olum, a bülbül,**
**Ana nəğməsi oxu.**

"Duyğu fraqmentləri"nə nəzər yetirirəm. Fikri ikicə misrada ifadə etməyin nümunələridir bu ikiliklər.

**Dedim, bu hicab gecəni**
**Ay kimi örtüm başıma..**

**Ayaqlar torpağı öpür,**
**Öpüş qalır ləpir-ləpir.**

Sərbəst şeirləri ayrıca bölmədə təqdim edib. Fikrimcə, o, sərbəst şeirdə yolunu davam etsə, daha çox uğur qazana bilər. "Xəyanət xərçəngi", "Qəzəl gözəlliyində" şeirləri bunu sübut edir ki, şair üçün hecanın, sərbəstin fərqi yox, təki ortada əsl şeirə məxsus atributlar əskilməsin.

Mənim Zəkiyyə Elruhun "Yarıtorpaq insan" şeirlər kitabında ən çox xoşladığım bir neçə şeir var. "Ağlama":

**İncisi, gövhəri, simu-zəriylə,**
**Bütün sevənlərin xoş nəzəriylə,**
**Al-əlvan Bakısı, göy Xəzriylə,**
**Dünya göz yaşına dəyməz, ağlama!**

Bir də silsilə şeirlərdəki "Saz"lar.Bir də "Sevginin rəngini unutmuşam mən". Bir də "Qurbanam, ana". Və dörd misralıq "Ağaclar" şeiri.

**Ağaclar çiçək açır, məndə şeir cücərir,**
**Qəlbimdəki kədəri, qəmi yeyir, cücərir.**
**Mən dünypnın zərrəsi, dünyada hikmətə bax,**
**Gecədən gündüz doğur, şərdən xeyir cücərir.**

- diqqətdən yayınmır.

Əlbəttə, Zəkiyyə xanımın şeirlərpi içərisində bir az yavan-yalxı görünənləri də var. Ya da bəzi şeirlərində şeirlik olmayan sözlər. Məncə, "Sözün ürəyi var" şeiri söz haqqında təzə söz demir. "Oyundur dünya" şeirində də dünya bəzi şairlərin şeimrlərində olduğu kimi neqativ nəzərə çarpır. Dünyanı pisləməklə nəyə nail ğolmaq olar? Eləcə də "Məni aktiv həyata Cəlb edənlər sağ olsun"-burada "aktiv həyat" sovet dövründə divarlara vurulan şuarları yadımıza salır. Səma KTİ-yə, ulduzlar metastatik düyünlərə bənzəyəli.. Gecənin romantikasını vampir dişli məzarların xofu pozdu".oxucu (elə mən də) KT nə deməkdir sualını verə bilər. Bir də axı, gecənin romantikasını "metastatik düyünlərə bənzətmək nəyə lazım? Başqa bir şeirdə "kontrast hisslər burulğanına düşdüm" deyir, bu "kontrast"ı bizim öz sözümüzlə əvəz etmək olmazdımı? Başqa misallar çəkmirəm. Zəkiyyə xanım əksər şekirlərində Azərbaycan şeirinin gözəlliyi hifz ekdir-qoy elə şeir dilində də belə sözlərə uymasın... Sonda Zəkiyyə xanımın bu dörd misralı gözəl şeiriylə sözümü bitirirəm:

**Bir gör qəm sandığı-ürək nə deyir,**
**Hər dərdli misraya demə ağıdır.**
**Ağlaya-ağlaya yazılan şeir**
**Yağışdan sonrakf göy qurşağıdır.**